**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**MÜŞƏRRƏF HÜSEYNAĞA QIZI ƏLİYEVA**

# İSLAM HÜQUQUNDA İNSAN HAQLARI

İxtisas 5607.01 – "Konstitusiya hüququ; bələdiyyə hüququ"

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2017**

Dissertasiya işi Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbərlər:** **AMEA-nın həqiqi üzvü, filologiya üzrə elmlər doktoru, akademik V.M.Məmmədəliyev**

**hüquq üzrə elmər doktoru, professor İ.O.Quliyev**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmər doktoru A.X.Rüstəmzadə**

**hüquq üzrə fəlsəfə doktoru G.F.Qurbanova**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**

Dissertasiya işinin müdafiəsi "_01_" "_05_" 2017-ci il tarixdə saat "______" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat"___" "________" 2017-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru, dosent:** **Ə.Q.Məmmədov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Dissertasiya mövzusunun aktuallığı**. Müasir dövrdə demək olar ki, bütün inkişaf etmiş dövlətlərin konstitusiyalarında, həmçinin beynəlxalq və regional səviyyəli müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqları bəşəriyyət yarandığı gündən öz aktuallığını qoruyub saxlamaqdadır. Dünya tarixinin müxtəlif dövrlərində baş vermiş qanlı müharibələr və inqilablar insan hüquq və azadlıqlarının təmin olunması məsələsinə diqqəti daha da artırmışdır. Belə ki, tarixə nəzər saldıqda tarixdə üç hadisənin insan hüquqlarının inkişafında dönüş nöqtələri olduğunu görürük. Bunlardan birincisi 15 iyun 1215-ci ildə İngiltərə kralı tərəfindən ingilis xalqı üçün təsbit edilmiş "Böyük Azadlıqlar Xartiyası"dır. Hansı ki, bu tarix islamda Muhəmməd peyğəmbərin Mədinənin müsəlman, yəhudi, xristian və bütpərəst əhalisi ilə anlaşaraq imzaladığı 47 maddədən ibarət qardaşlıq, vətəndaşlıq və yardımlaşma müqaviləsi olan Mədinə Müqaviləsindən tam 593 il sonradır.

Insan hüquqlarının II dövrü olaraq qəbul edilən "Fransız İnsan və Vətəndaş Haqları Bəyannaməsi" 1789-cu ildə fransız xalqının sinfi mübarizə, savaş və böhran nəticəsində əldə etdiyi bəyannamədir. Amma 622-ci ildə Muhəmməd peyğəmbər qan tökülmədən, qarşıdurmasız anlaşma təmin etmişdi (1167 il əvvəl).

Insan hüquqları sahəsində III dövr BMT İnsan Hüquqları Bəyannaməsidir. 10 dekabr 1948-ci ildə Paris Konqresində qəbul edilən, bütün insanlara tanınan əsas hüquqları ehtiva edən bu bəyannamə də yalnız hər iki dünya müharibəsinin yaratdığı dəhşət və vurduğu zərərin nəticəsi olaraq meydana gəlmişdir. Amma islamın gətirdiyi insan hüquqları eyni zamanda təbii haqlar olub, 14 əsrdən bəri islam dünyasının yaşatdığı və tətbiq etdiyi hüquqlardır (1326 il əvvəl).

İslam dünyasında insan hüquqları sahəsində 19 sentyabr 1981-ci il İslam İnsan Hüquqları Ümumi Bəyannaməsi və 5 avqust 1990-cı il Qahirə Bəyannaməsi mühüm əhəmiyyət kəsb edən aktlardır. Hər iki bəyannamə Quran-Kərim və Sünnəyə əsaslanmaqla insan hüquq və azadlıqlarını təsbit edir.

İnsan hüquqlarının müdafiəsinə artan diqqətin nəticəsi olaraq son illərdə respublikamızda da insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Müstəqil Azərbaycanın 1995-ci il 12 noyabr tarixli ilk konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarının təminatşısı kimi mühüm əhəmiyyət kəsb edir. İnsan hüquq və

azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi və dövlət siyasətinin əsas istiqaməti hesab edilməklə, bu hüquqların müdafiəsi sahəsində görülən tədbirlərin artırılması məqsədilə "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 fevral tarixli fərmanı qəbul edilmiş, 1998-ci il 18 iyun tarixində "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir. Həmçinin "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" 2002-ci il 24 dekabr tarixli Konstitusiya Qanunu da bu sahədə mühüm əhəmyyət kəsb edən sənədlərdəndir. 2006-cı il dekabrın 28-də bu sahədə görülən tədbirləri genişləndirmək, həmçinin Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının beynəlxalq sənədlərə uyğunluğunu təmin etmək məqsədilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" təsdiq edilmişdir.

Hazırkı tədqiqatımızın məqsədi isə insan hüquqlarının daha dərin köklərinin islam hüququ, onun mənbəyi olan Qurani-Kərimlə bağlılığına diqqət yetirmək və bu dinin ümumbəşəri dəyərlərindən daha səmərəli faydalanmaq yollarına aydınlıq gətirməkdən ibarətdir. Bildiyimiz kimi, islam dini səmavi dinlərin sonuncusu olmaqla digər iki dini (yəhudilik və xristianlıq) və Qurani-Kərim daha əvvəlki üç dini kitabı (Tövrat, Zəbur və İncil) əhatə edir və tamamlayır. Hər din və kitab Allahın peyğəmbərləri vasitəsilə insanlara bildirdiyi əsasları ehtiva edir.

XVIII əsrdən başlayaraq bu günə kimi müxtəlif beynəlxalq və regional səviyyəli müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqları hələ VII əsrdə islam dininin əsas mənbəyi olan Qurani-Kərimdə, həmçinin Muhəmməd peyğəmbərin Sünnəsində elan olunmasına baxmayaraq, bu hüquqların islam dini nöqteyi-nəzərindən tədqiqi tədqiqatçıların diqqətindən kənarda qalmışdır. Bəzi tədqiqatçılar tərəfindən aparılan tədqiqat işləri isə islam hüququnun mahiyyətinin, mənbələrinin və strukturunun öyrənilməsinə həsr olunmuşdur. Xüsusilə sovetlər birliyi zamanında aparılan ateist təbliğat, vicdan azadlığına qoyulan qadağa islam dini dəyərlərinin və bu dinə əsaslanan islam hüququnun araşdırılması və inkişaf etdirilməsi yolunda ciddi maneə olmuşdur. İnsan hüquqları sahəsində beynəlxalq hüquqa daha çox diqqət yetirildiyi halda, bu sahədə islam hüququna demək olar ki, diqqət yetirilməmişdir. İslam hüququna bu cür münasibət xüsusilə bəzi qərb tədqiqatçıları tərəfindən bu dinə və hüquqa olan neqativ, qeyri-obyektiv yanaşmanın nəticəsidir. Hansı ki, bu

da islam hüququnun insan hüquqları sahəsindəki rolunun və əhəmiyyətinin yanlış anlaşılmasına gətirib çıxarmışdır.

İslam dini və islam hüququ bir sıra şərq ölkələrinin dövlət və hüququnun inkişafına, xüsusilə bu ölkələrdə insan hüquqlarının təşəkkülünə böyük təsir göstərmişdir. Bir şərq ölkəsi kimi respublikamız da bu təsirdən kənarda qalmamışdır. Belə ki, VIII əsrin əvvəllərindən XIX əsrin əvvəllərinə qədər Azərbaycan ərazisində mövcud olmuş müxtəlif dövlətlərdə məhz islam hüququ hakim hüquq sistemi olmuşdur. 1920-ci illərdən başlayaraq sovet hökumətinin ittifaq dövlətlərində apardığı ateist siyasət islam hüquq sisteminin roman-german hüquq sistemi ilə əvəzlənməsi ilə nəticələnmişdir.

Müasir dövrdə dünya dövlətlərinin böyük əksəriyyətini əhatə edən qloballaşma şəraitində xalqların özünəməxsus milli-mənəvi dəyərləri nəzərə alınmaqla insan hüquq və azadlıqlarının təmin olunması məsələsi aktual problemlərdən biri hesab edilir. Belə ki, dövlətlərarası münasibətlər müxtəlif xalqlar arasındakı mədəniyyət mübadilələri ilə nəticələnir. Hansı ki, bu mədəniyyət mübadilələri azsaylı xalqların mədəniyyətinin və mənəvi dəyərlərinin böyük xalqların mədəniyyətinin təsiri altında tədricən silinib yox olmasına, mədəni eyniliyin yaranmasına, millətlərin min illərdən bəri qoruyub saxladıqları adət-ənənələrin, milli-mədəni dəyərlərin arxa plana keçməsinə, ümumbəşəri dəyərlərin əhəmiyyət kəsb etməsinə gətirib çıxarır. Bir sözlə, qloballaşma ictimai həyatın bütün sahələrində (siyasi, iqtisadi, mədəni) qərb düşüncə formasının təbliğ edilməsidir.

Akademik Ramiz Mehdiyev "Qloballaşma dövründə dövlət və cəmiyyət" adlı məqaləsində yazır: "Qloballaşma suveren dövlətlər arasındakı sədləri dağıdaraq cəmiyyətin daxilində sosial münasibətləri yeni məcraya salır, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə salaraq sərt şəkildə məhdudlaşdırır. O, əvvəla, milli mədəniyyət və ənənələrin öncüllüyünü dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, coğrafi və iqtisadi vəziyyətindən, siyasi quruluşundan, habelə milli mentalitetindən asılı olmayaraq cəmiyyəti qərbləşdirir".

Qloballaşan dünyamızda respublikamızın da bu "qərbləşmə" prosesindən kənarda qala bilməməsi təbiidir. Bu gün respublikamızda insan hüquqları sahəsində qəbul edilən qanunlarda qərb mədəniyyəti və hüququnun təsiri danılmazdır. Dissertasiyada tədqiq etdiyimiz şəxsiyyət əleyhinə olan cinayətlər, süni yolla (donor vasitəsilə) övlad sahibi olma məsələlərində bu təsir xüsusilə hiss olunur.

Dissertasiya işində islamda və milli qanunvericilikdə insan hüquq və azadlıqlarını təsbit edən sənədləri, həmçinin qloballaşma prosesinin təsiri altında qəbul edilmiş bəzi normaları tədqiq etməklə islamda 14 əsr bundan əvvəl elan edilmiş hüquqların bu gün də öz əhəmiyyətini itirmədiyini, universal xarakter daşıdığını göstərməyə çalışmışıq.

Dissertasiya işinin mövzusunun seçilməsi, onun aktuallığı və əhəmiyyəti də yuxarıda qeyd edilən amillərdən irəli gəlir.

Dissertasiyada insan hüquq və azadlıqları ümumi şəkildə təhlil edilməklə yanaşı, ayrı-ayrı vətəndaş kateqoriyalarının da (qadın, uşaq, zimmi, kölə) hüquqi vəziyyəti tədqiq edilmişdir.

**Mövzunun elmi işlənmə dərəcəsi.** Dissertasiya işi Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının islam dini nöqteyi-nəzərindən təhlilinə həsr edilmiş ilk monoqrafik tədqiqatdır.

Qeyd etmək lazımdır ki, insan hüquqları və onların müdafiəsi məsələsi daim aktuallığını qoruyub saxlamaqla, tədqiqatçıların diqqət mərkəzində olmuş, bu sahədə kifayət qədər araşdırma aparılmış, monoqrafiyalar yazılmışdır. Lakin insan hüquq və azadlıqlarının islam dini nöqteyi-nəzərindən tədqiqinə diqqət yetirilməmiş, aparılmış tədqiqat işləri isə islam hüququnun mahiyyətinin, mənbələrinin, strukturunun, həmçinin islam hüququnun tənzimlədiyi müxtəlif məsələlərin öyrənilməsinə həsr olunmuşdur. Belə işlərin sırasına N.H.Cəfərlinin "Müsəlman hüququnun əsasları" adlı dərsliyi, R.Y.Əliyevin "İslamda ailə və nigah münasibətləri" adlı əsərini, L.İ.Klimoviçin "İslamın sinfi mahiyyəti" adlı əsərini, S.Mirzəyevanın "İslamda uşaq hüququ" mövzusunda namizədlik dissertasiyasını və digər müəlliflərin əsərlərini aid etmək olar.

Dissertasiya işində şəxsiyyət əleyhinə olan cinayətlər, nikaha mane olan hallar, süni yolla (donor vasitəsilə) övlad sahibi olma ilə bağlı mövcud olan milli normalar, həmçinin göstərilmiş məsələlərlə əlaqədar islam dininin hökmləri araşdırılmışdır.

Ümumiyyətlə, haqqında bəhs edilən mövzu milli konstitusiya hüquq elmində müstəqil olaraq heç vaxt nə monoqrafik, nə də dissertasiya tədqiqatının predmeti olmamışdır.

Mövzunu araşdırmaq məqsədi ilə bir çox milli normativ aktlarla yanaşı, türk və rus ədəbiyyatları araşdırılmış, internet saytlarındakı məlumatlardan istifadə edilmişdir.

**Tədqiqatın obyektini** islamda və milli qanunvericilikdə insan hüquqları institutu təşkil edir.

**Tədqiqatın predmetini** islam hüququnun əsas mənbələri olan Qurani-Kərim və Sünnə, həmçinin insan hüquqları sahəsində milli qanunvericilikdə mövcud olan normativ-hüquqi aktlar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi islamda və milli qanunvericilikdə insan hüquqları ilə bağlı mövcud olan mənbə və normativ aktların kompleks şəkildə tədqiq edilməsindən, insan hüquq və azadlıqları sahəsində milli qanunvericiliyimizin bəzi normalarının təkmilləşdirilməsi üçün konkret təklif və tövsiyələr verilməsindən ibarətdir.

Dissertasiyanın məqsədinə müvafiq olaraq aşağıdakı **vəzifələr** müəyyən olunur:

- Qurani-Kərimdə insan hüquq və azadlıqlarını ehtiva edən normaların müəyyən edilməsi;
- Sünnədə insan hüquq və azadlıqlarını nəzərdə tutan hədislərin tədqiqi;
- insan hüquq və azadlıqlarının təminatçısı kimi Mədinə Müqaviləsinin tədqiqi;
- tarixi Vida Xütbəsinin insan hüquq və azadlıqları baxımından araşdırılması;
- insan hüquqları sahəsində islam dövlətləri üçün ümumi qaydalar müəyyən edən beynəlxalq sənədlərin tədqiq edilməsi;
- müvafiq beynəlxalq hüquq normaları ilə islam qaydalarını müqayisəli təhlil etmək;
- insan hüquqları sahəsində milli qanunvericiliyin tədqiqi;
- insan hüquqları sahəsində beynəlxalq aktların tədqiqi;
- islamda və milli qanunvericilikdə şəxsiyyət əleyhinə olan cinayətlərin araşdırılması;
- nikahın bağlanmasına mane olan halların islam hüququnun mənbələri və milli qanunvericiliyimizin normaları əsasında tədqiqi;
- süni yolla övlad sahibi olmanın islam hüququ və milli qanunvericilik əsasında araşdırılması.

**Tədqiqatın metodoloji əsasları.** Dissertasiya işi hazırlanarkən ümumhüquqi metodlardan – sistemli təhlil, normativ, tarixi yanaşma; xüsusi elmi metodlardan: məntiqlilik, müqayisəli-hüquqi, obyektivlik və s. metodlardan istifadə edilmişdir.

**Tədqiqatın nəzəri əsasları.** Tədqiqat işində V.M.Məmmədəliyev, İ.O.Quliyev, Z.A.Əsgərov, L.H.Hüseynov, Ə.İ. Əliyev, Sabir Allahverdiyevin, Nailə Vəlixanlının, Qasım Kərimovun, Sabir Həsənlinin,

həmçinin xarici müəlliflərdən Sərvət Ərməğanın, Əbdülkərim Osmanın, Heydər Başın, Xeyrəddin Qaramanın, Cəlal Ərbayın, Muhəmməd Umaranın, Əbül-Hüseyn Müslimin, Əbu İsa Muhəmməd Tirmizinin, Əbdülqadir Udehin, Əbu Abdillah Muhəmməd Buxarinin, Əhməd ibn Hənbəlin, Həmdi Döndürənin, Həsən Güləcin, Hüseyn Təkin Gökmənoğlunun, Rza Savaşın, Muhəmməd Həmdi Yazırın, Səlim əl-Bəhnəsəvinin, Bəkir Topaloğlunun, L.İ.Klimoviçin, Anri Massenin, İ.P.Petruşevskinin və digər alimlərin əsərlərindən istifadə edilmişdir.

**Tədqiqatın normativ əsasını** islam hüququnun əsas mənbəyi olan Qurani-Kərim və Muhəmməd peyğəmbərin Sünnəsi, həmçinin Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyası və ona uyğun qəbul edilmiş bir sıra qanunvericilik aktları təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi** ondan ibarətdir ki, ilk dəfə olaraq xüsusi monoqrafik tədqiqatda insan və vətəndaş hüquq və azadlıqları islam hüququ nöqteyi-nəzərindən kompleks şəkildə tədqiq edilir, milli qanunvericiliyin bu sahədəki normaları ilə müqayisəli təhlil aparılır.

Dissertasiya tədqiqatının elmi yeniliyi müəllifin müdafiəyə təqdim etdiyi aşağıdakı **elmi müddəalarda** ifadə olunur:

1. Muhəmməd peyğəmbərin hicrətin 1-ci ilində (miladi 622-ci ildə) Mədinə əhalisi ilə bağladığı 47 maddədən ibarət Mədinə Müqaviləsinin dövlət quruluşunu və idarəetmə formasını, dövlətin sosial-iqtisadi quruluşunun əsaslarını, cəmiyyətin mənəvi həyatının əsaslarını, vətəndaşların hüquqi statusunu, bir sözlə müasir konstitusiyalarla tənzimlənən məsələləri hələ 14 əsr bundan əvvəl nizama salması ilə əlaqədar dünyada ilk yazılı konstitusiya hesab edilməlidir;

2. Muhəmməd peyğəmbərin hicrətin 10-cu ilində (miladi 632-ci ildə) həcc ziyarəti zamanı Məkkədə söylədiyi "Vida Xütbəsi" adlandırılan nitqinin cəmiyyətin, ictimai asayişin qorunması, bəşəriyyət üçün xüsusi əhəmiyyət kəsb edən məsələləri tənzimləməsi, dilindən, dinindən, irqindən, maddi vəziyyətindən asılı olmadan bütün insanlığı əhatə etməsi baxımından insan hüquq və azadlıqları sahəsində ilk universal xarakterli bəyannamə hesab edilməlidir;

3. İslam dini insan hüquqlarının inkişafını və bunun nəticəsi olaraq insan hüquqlarının universallığını qəbul edir. Müasir dövrdə islam dünyasında insan hüquqları sahəsində Qurani-Kərim və Sünnəyə əsaslanan bir sıra mühüm beynəlxalq sənədlərin (19 sentyabr 1981-ci il İslam İnsan Hüquqları Ümumi Bəyannaməsi və 5 avqust 1990-cı il Qahirə Bəyannaməsi) qəbulu bunun bariz nümunəsidir. Bu növ beynəlxalq

sənədlərin mövcud olması Qurandakı insan hüquqları ilə bağlı müddəaların inkişafının təmin edilməsinin müasir dövr üçün xarakterik olan forması kimi qəbul edilməlidir;

4. İslamın özünəməxsus xüsusiyyətlərindən biri digər dinlərin paralel mövcud olmasını qəbul etməsidir. Tolerant mühitin mövcud olması, dinlərarası və mədəniyyətlərarası dialoqun qəbul edilməsi, insan hüquqlarının təmin edilməsi ilə sıx bağlıdır. Dünyəvi dövlət olmasına rəğmən tolerantlıq mühitinin təşəkkül tapdığı, multikulturalizmin mövcud olduğu Azərbaycan Respublikası mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun mümkün olmasını sübut etməklə, islam dəyərlərinin beynəlxalq münasibətlərin humanistləşdirilməsi fəaliyyətində iştirakının təmin edilməsində əhəmiyyətli rol oynaya bilər. Bu istiqamətdə Azərbaycan Respublikasında 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan olunması təqdirəlayiqdir;

5. Azərbaycan Respublikasnın cinayət qanunvericiliyi qəsdən adam öldürməyə görə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutur. Bu cəzanın tətbiqi zərəçəkmiş tərəfə dəymiş zərərin aradan qaldırılmasına, hüquqlarının tam təmininə yönəlmiş olmayıb, cinayəti törətmiş şəxs üçün yalnız müəyyən müddətə azadlıqdan məhrum etmə müəyyən edir. İnsan həyatına verilən dəyərə əsasən, həmçinin yaxınlarını təskin etmək məqsədilə AR CM-nin 120-ci maddəsində qəsdən adam öldürməyə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzası ilə yanaşı, islam hüququnda mövcud olan diyəyə uyğun olaraq təzminatın müəyyən edilməsini və 120.1. və 120.2.12.-ci maddələrin müvafiq redaksiyada verilməsini təklif edirik;

6. Qloballaşma prosesinin cəmiyyətimiz üçün mənfi təzahürlərindən biri də vaxtilə şəxsiyyət əleyhinə olan cinayətlərdən biri qismində AR-in keçmiş CM-də nəzərdə tutulmuş uşaqbazlıqdır. Respublikamızda bu əməl 2001-ciilədək cinayət hesab olunmaqla, AR-in keçmiş CM-nin 113-cü maddəsi ilə (uşaqbazlıq) bu əmələ görə məsuliyyət nəzərdə tutulurdu. 2001-ci ildə bu maddə Avropa Şurasına üzv qəbul edilmək məqsədilə CM-dən çıxarıldı. Daha dəqiq desək, bu əməl respublikamızda icazə verilən olmaqla, onun tətbiqinə görə cinayət məsuliyyəti nəzərdə tutulmur. Uşaqbazlığın ailə institutunu, həmçinin cəmiyyəti sarsıdan, mənəviyyata sığmayan, əxlaq normalarına uyğun gəlməyən, mentalitetimizə zidd olan əməl olduğunu nəzərə alaraq, bu əməlin AR CM-nin 20-ci fəslində müəyyən edilmiş şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlərdən biri qismində nəzərdə tutulmasını, AR Cinayət

Məcəlləsinin 150-ci maddəsinin adının və dispozisiyasının dəyişdirilərək müəyyən redaksiyada verilməsini təklif edirik;

7. AR Ailə Məcəlləsinin 12-ci maddəsi nikaha mane olan hallardan biri qismində yaxın qohumlar olaraq valideynlər və uşaqları, baba-nənə və nəvələri, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacıları nəzərdə tutur. Qurani-Kərimin Nisa surəsinin 23-cü ayəsində müəyyən edilmiş nikaha mane olan hallara əsasən, AR Ailə Məcəlləsinin 12-ci maddəsinin 1-ci hissəsinə nikahın bağlanmasına mane olan hallar qismində dayılar-əmilər və bacı-qardaş qızları, bibilər-xalalar və bacı-qardaş oğulları hallarının əlavə edilməsini məqsədəmüvafiq hesab edirik;

8. Muhəmməd peyğəmbər varisə vəsiyyət edilməsini qadağan edir, çünki o qanun üzrə artıq vərəsədir. Yəni Nisa surəsinin 11, 12 və 176-cı ayələrində qanun üzrə vərəsələrin miras paylarının miqdarı müəyyən edilmişdir. İslam hüququnda vərəsəlikdən məhrum etmə halları kimi vərəsəsi olacağı şəxsi öldürmə, din fərqi, dindən dönmə və köləlik müəyyən edilmişdir. AR MM vərəsəlikdən məhrum etmə halları kimi ləyaqətsiz vərəsə (maddə 1137) və vərəsə ola bilməyən valideynlər (maddə 1138) hallarını nəzərdə tutur. Bu qadağaya və MM-nin təsbit etdiyi vərəsəlikdən məhrum etmə hallarına əsasən, AR MM-nin 1166-cı maddəsindən vəsiyyət üzrə vərəsələr qismində qanun üzrə vərəsələrin çıxarılmasını, maddənin müvafiq redaksiyada verilməsini məqsədəmüvafiq hesab edirik;

9. AR Mülki Məcəlllsinin 1166-cı maddəsi vəsiyyət azadlığı prinsipi əsasında miras qoyan şəxsə əmlakını istədiyi şəxsə vəsiyyət etməyə imkan verir. Belə ki, vəsiyyət edən qanun üzrə vərəsələrdən birini, bir neçəsini və ya hamısını vəsiyyətnamə ilə mirasdan məhrum edə bilər və bunu əsaslandırmağa borclu deyildir. Düzdür, AR MM-nin 1193-cü maddəsi vəsiyyətnamənin məzmunundan asılı olmayaraq qanun üzrə vərəsələrin mirasda məcburi pay hüququnu təsbit edir. Lakin qanuna əsasən bu pay, qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir. Miras qoyan şəxsin bu prinsipdən sui-istifadəsinin, həqiqi vərəsələrin vərəsəlik hüquqlarının pozulmasının qarşısını almaq məqsədilə vəsiyyət ediləcək əmlakın Bəqərə surəsinin 180-ci ayəsində göstərilmiş miqdarda (mirasın 1/3-i) müəyyən edilməsini və AR Mülki Məcəlllsinin 1166-cı maddəsinə müvafiq dəyişikliyin edilməsini təklif edirik;

10. Cəmiyyətimizin qloballaşma, avropaya inteqrasiya proseslərindən mənimsədiyi mənfi cəhətlərdən biri də süni yolla övlad sahibi olmaqla

bağlıdır. Daha dəqiqi, normal yolla övlad sahibi ola bilməyən ailələrin və insanların donor vasitəsilə uşaq sahibi olmasıdır. Qərb ölkələrində geniş yayılmış bu üsul respublikamızda da böyük “rəğbət” qazanmışdır. Və bu rəğbətin nəticəsi “Əhalinin saglamlığının qorunması” haqqında 1997-ci il tarixli AR Qanununun 29-cu maddəsində (Süni mayalanma və embrionun implantasiyası) öz əksini tapmışdır. Həmin maddədə deyilir ki, yetkinlik yaşına çatan hər bir qadının süni mayalanma və ona embrionun implantasiyası hüququ vardır. Həmin qanunun qeyd edilmiş vəziyyətlə bağlı müddəaları müasir dövrün tələblərini tam olaraq əhatə etmədiyi üçün qanunverici orqanımız yeni qanunun qəbulu ərəfəsindədir. Həmin layihə “Reproduktiv sağlamlığın qorunması haqqında” Qanun adlanmaqla hal-hazırda ictimaiyyətin müzakirəsinə təqdim edilmişdir. IV fəsil, 23 maddədən ibarət olan bu qanun, süni yolla uşaq sahibi olmanın əsaslarını müəyyən edir. Qanunun 12-ci maddəsinə əsasən, somatik və psixi cəhətdən sağlam yaşı 18-dən 35-dək olan kişilər və qadınlar müvafiq tibbi-genetik müayinədən keçdikdən sonra mayalanma xüsusiyyətinə malik cinsi toxumaların donoru ola bilərlər. Bir şəxs beş!!! ailə üçün donor ola bilər. Bu qanun layihəsinin də qeyd edilən müddəaları milli-mənəvi dəyərlərimizə, ən başlıcası dinimizin uşaqla bağlı müddəalarına ziddir. “Əhalinin saglamlığının qorunması” haqqında AR Qanununun 29-cu maddəsinin müddəalarının (Süni mayalanma və embrionun implantasiyası), həmçinin “Reproduktiv sağlamlığın qorunması haqqında” Qanun layihəsinin donor xidmətləri ilə bağlı müddəalarının islam hüququna uyğun dəyişdirilərək, tətbiqinin yalnız evli cütlər arasında nəzərdə tutulmasını təklif edirik.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, dissertasiya işində Azərbaycan qanunvericiliyində və islam hüququnda bir sıra aktual və nəzəri məsələlər həll edilmişdir. Dissertasiya tədqiqatının praktik əhəmiyyəti onun cari qanunvericiliyin təkmilləşdirilməsindən, həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının elmi təhlilindən, “Konstitusiya hüququ”, “İnsan hüquqları” kurslarının və fənlərinin tədrisi zamanı istifadə edilməsinin mümkünlüyündən ibarətdir.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Milli Aviasiya Akademiyasının “Hüquqşünaslıq” kafedrasında yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas müddəa və nəticələri müəllifin Azərbaycanda və xaricdə nəşr olunan elmi jurnallardakı elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu** girişdən, altı paraqrafdan ibarət olan iki fəsildən, nəticə və ədəbiyyat siyahısından, həmçinin əlavələrdən ibarətdir.

## İşin ümumi məzmunu

Dissertasiyanın **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi aydınlaşdırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, istifadə olunmuş normativ və empirik baza, nəzəri və metodoloji əsaslar, işin elmi yeniliyi və müdafiəyə çıxarılan əsas müddəalar barədə ətraflı izahat verilir, dissertasiyanın strukturu və onun nəticələrinin aprobasiyasına dair məlumatlar verilir.

Dissertasiya işinin "**İslamda insan hüquq və azadlıqlarının ümumi səciyyəsi"** adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir.

Birinci fəslin **"İslamda insan hüquq və azadlıqları anlayışı"** adlanan birinci yarımfəslində islamda insan hüquq və azadlıqları anlayışı haqqında məlumat verilir. Qeyd edilir ki, islam dini nöqteyi-nəzərindən baxıldığında insan Allahın yer üzündəki həm xəlifəsi, həm də quludur. Qul olaraq insan Allahın iradəsinə tabe olmalı, Allahın yer üzündəki xəlifəsi, təmsilçisi olaraq həyatını Onun əmr və qadağaları əsasında tənzimləməlidir.

Göstərilir ki, qərbdə yalnız XIII əsrdən sonra meydana gələn insan hüquqları və demokratiya bu gün qeyri-müsəlman ölkələrinin müdafiə etdiyi dəyərlər arasında gəlir. Halbuki müsəlmanlar və islam hüquqşünasları ilk dövrlərdən etibarən "Allah haqqı" və" qul haqqı" anlayışlarından istifadə etmişlər.

İslamda qul haqqı-insan haqqı ifadəsi termin olaraq ən azı min ildən bəri istifadə olunmaqdadır. İslam hüquqşünaslarının cəmiyyətlə bağlı hüquqları termin olaraq hüququllah adlandırmalarının, yəni bu hüquqları Allaha aid etmələrinin səbəbi isə bu hüquqların şəxslərə mənsub olmayıb, cəmiyyətin mənafeyini ifadə etdiyi üçün, ictimai asayişi qorumaq, intizamı yüksəltmək üçün, yəni əhəmiyyəti baxımından Allaha aid edilməsidir. İslama görə insan Allahın yer üzünə vəzifələndirərək göndərdiyi məxluqudur. İnsan vəzifə ilə mükəlləf olduğu üçün digər məxluqlar arasında müstəsna yerə sahibdir. Bu müstəsnalıq insanın "əmanət" sahibi olmasından irəli gəlir. Qurani-Kərimdə bəyan edildiyinə görə, insan göylərin və yerin qəbul etmədiyi vəzifəni üzərinə götürmüşdür. Üzərinə götürdüyü əmanət sayəsində digər məxluqlar üzərində sərəncam vermək

səlahiyyətinə malikdir [ən-Nisa:4/58]. Bu vəzifəsini yerinə yetirərkən insan bütün məxluqlar arasında Allahın qoymuş və bildirmiş olduğu qanunları tətbiq etməyə çalışmalıdır[əl-Bəqərə:2/29]. İnsanların canları, malları, namusları haram, yəni toxunulmazdır. Hətta bir insan öz canı, malı və namusu üçün istədiyi kimi sərəncam verə bilməz.

Göstərilir ki, insan hüquqları məna və anlayış etibarilə yer üzündə ilk insan və ilk peyğəmbər olan Hz. Adəmlə başlayır. Çünki Allah-Təala ona insan və əşya ilə bağlı hər şeyi öyrətmişdi [əl- Bəqərə:2/31]. Öyrədilənlər içərisində insan hüquqlarının da olduğu Hz. Adəmin oğulları Qabillə Habil arasındakı dialoqdan anlaşılır [əl-Maidə:5/28].

Dini nöqteyi-nəzərdən götürdükdə vəhylərin enməsi, dinlərin gəlməsi, peyğəmbərlərin vəzifələndirilməsi, şəriətin-hüququn qoyulmasında məqsəd insanların dünyada və axirətdə mənfəətlərini təmin etməkdən ibarətdir [əl-Ənbiya:21/107; əl-Maidə:5/6].

Qeyd edilir ki, bütün peyğəmbərlərin şəriətləri-hüquqları tədqiq edildikdə, ehtiva etdikləri iman, əməl və əxlaq əsasları araşdırıldıqda hamısının beş nemətə əsaslandığı müşahidə edilir. Bunlar dini, canı, ağlı, nəsli və malı qorumaqdır. Şəriətin-hüququn qoyulmasında məqsəd, Allahın insanları ilahi qanunlara boyun əyməsinə təşviq etməsindəki hikmət bu beş neməti qorumaqla insanlığı əbədi rifaha çatdırmaqdır.

Bu fəslin **"İslamda insan hüquq və azadlıqlarının yaranması və inkişaf tarixi" adlanan** ikinci yarımfəslində islamda insan hüquq və azadlıqlarının yaranması və inkişaf tarixi tədqiq edilir. Qeyd edilir ki, VII əsrdə bəşəriyyət bitmək bilməyən daxili müharibələr, xarici işğallar, bir-birini əvəz edən və ya eyni zamanda mövcud olan dinlər və inanclar ucbatından insan hüquq və azadlıqları, vəzifələri baxımından xaos bataqlığında idi. İnsanları bu qaranlıqdan qurtaracaq, onlara doğru yolu göstərəcək yeni bir kitaba [əl-Bəqərə:2/2,185; Ali-İmran:3/138] və xəbərdaredici, müjdələyici rəhmət peyğəmbərinə ehtiyac vardı [əl-Əhzab:33/45-46;"əl-Ənbiya:21/107; Səba: 34/28]. Belə bir dövrdə meydana gələn islam dini əbədiyyətə qədər insanlığa doğru yolu göstərəcək hökmləri ehtiva etməklə, digər səmavi dinləri (yəhudilik və xristianlıq) tamamlayırdı. İslam dininin hökmlərinin ifadə olunduğu Qurani-Kərim milyonlarla insanın etiqad etdiyi islam dininin müqəddəs kitabı, səmavi kitabların sonuncusudur. Qurani-Kərim 14 əsr bundan əvvəl vəhy edilməsinə baxmayaraq, özündə cəmiyyətin mənafeyini müdafiə edəcək, insanların davranışlarını ictimai həyatın bütün sahələrində tənzimləyəcək normaları ehtiva etməklə, bu gün də öz aktuallığını qoruyub saxlayır.

Qurani-Kərimdə müsəlmanların gündəlik davranışlarını nizama salan, müsəlmanlarla qeyri-müsəlmanların münasibətlərini tənzimləyən, insan hüquq və azadlıqlarını təsbit edən və ən mükəmməl şəkildə müdafiə altına alan kifayət qədər hüquq norması mövcuddur. Qurani-Kərim insan hüquqlarını ehtiva və müdafiə baxımından islam dininin əsas mənbəyi hesab edilir, daha əvvəl göndərilmiş üç səmavi kitabı tamamlayır. Quran yalnız ərəblər üçün deyil, yer üzündəki VII əsrdən qiyamətə qədər bütün insanları doğru yola dəvət etmək üçün göndərilmişdir [əl-Ənbiya:21/107].

İddiaçı göstərir ki, Muhəmməd peyğəmbərin peyğəmbərlik fəaliyyəti Məkkə və Mədinə dövrü adlanmaqla, iki dövrə ayrılırdı. İlk ayənin vəhyindən peyğəmbərin Mədinəyə hicrətə qədər olan on üç illik Məkkə dövrü 610-622-ci illəri əhatə edirdi. 622-632-ci illəri əhatə etməklə, islamın dövlət sisteminin qurulduğu, peyğəmbərin vəfatınadək olan on illik təbliğ və cihad dövrü Mədinə dövrü adlanır.

Mədinədə Muhəmməd peyğəmbərin insan hüquqları ilə bağlı fəaliyyətinin üç mərhələdən - ənsar və mühacir qardaşlığı, Mədinə Müqaviləsi və Vida Xütbəsi- ibarət olduğu göstərilir.

Qeyd edilir ki, həmin fəaliyyətin birinci mərhələsi olan ənsar və mühacir qardaşlığı əxlaqi, siyasi, iqtisadi və hüquqi əhəmiyyət kəsb edən bir tənzimləmə formasıdır. Yəni insanların qardaşlıq hissləriIə bir-birinə bağlanaraq öz əmlakının yarısını qarşılıqsız olaraq yeni qardaşına verməsi tarixdə bənzəri olmayan bir hadisədir. Mədinəyə gələrkən əyinlərindəki paltarları xaricində bütün əmlaklarını Məkkədə qoymaq məcburiyyətində qalan mühacirlər işsiz və evsizdilər. İnandıqları islam dini isə Mədinəyə hicrət edənlərin bir-birinin himayəçisi, varisi olduqlarını, bir-birilə yardımlaşmalı olduqlarını bildirirdi.

İnsan hüquqları sahəsindəki fəaliyyətinin ikinci mərhələsi kimi Muhəmməd peyğəmbərin hələ 622-ci ildə (h. 1-ci il) Mədinənin bütpərəst, xristian, yəhudi və müsəlman əhalisi arasında bağladığı müqavilənin də mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilir. Belə ki, 47 maddədən ibarət Mədinə müqaviləsi öz orijinallığı baxımından xüsusi əhəmiyyətə malikdir. Müqavilədə islam ümmətinin dil, qohumluq əlaqələri, coğrafi amillər əsasında deyil, əqidə birliyi əsasında formalaşdığı xüsusi olaraq vurğulanırdı. Bu müqaviləni imzalayan fərd və ya qruplar, müsəlman, qeyri-müsəlman, bütpərəst olmasından asılı olmayaraq bir ümmət olaraq siyasi cəmiyyətin üzvü olmaqla hüquq və vəzifələrə sahib olurdular. Bu anlayış o zamana qədər hakim olan qəbiləçilik yerinə insan ünsürünə və

onun seçiminə əsaslanan, din, dil, irq fərqini nəzərə almayan yeni siyasi cəmiyyət anlayışıdır.

Qeyd edilir ki, Mədinə Müqaviləsi müasir konstitusiyalarla tənzimlənən məsələləri hələ 14 əsr bundan əvvəl nizama saldığı üçün dünyada ilk yazılı konstitusiya hesab edilməlidir.

İddiaçı qeyd edir ki, islamda insan hüquqlarını ehtiva baxımından xüsusi əhəmiyyət kəsb edən digər mənbə Muhəmməd peyğəmbərin həcc ziyarəti zamanı Məkkədə söylədiyi nitqdir. İslam hüququnda Vida Xütbəsi adlandırılan bu tarixi xütbə hicrətin 10-cu ilində (632-ci ildə) elan edilməklə insanlığın əbədi rifahını təmin edəcək qaydaları nəzərdə tutur, islamın əmrlərini özündə əks etdirirdi. Bu Xütbədə insan hüquq və azadlıqları ən mükəmməl şəkildə, haqq və ədalət ölçüləri çərçivəsində təminat altına alınır və islamın əsas mövzularını ehtiva etməsi, cahillik adətlərinin aradan qaldırılması, bərabərlik, azadlıq, qan davaları, faiz, əmanət, insan haqları, ər-arvad haqları, vəsiyyət, nəsəb (soy), zina, borc və zaminlik kimi hüquqi məsələləri ehtiva etdiyinə görə xüsusi əhəmiyyətə malikdir. Muhəmməd peyğəmbərin bu xütbəsi yalnız müsəlmanlara aid olmayıb, bütün insanlığı əhatə edən tarixi bir xütbə və beynəlxalq insan haqları bəyannaməsidir. Xütbədə 7-8 yerdə təkrarlanan insan (nas) sözü ilə bu xütbənin ümumi olduğu, yəni bu xütbə ilə yalnız müsəlmanlara deyil, qeyri-müsəlman, ateist-bütün insanlığa müraciət edildiyi məlum olur.

Müəllifin fikrincə, cəmiyyətin, ictimai asayişin qorunması, bəşəriyyət üçün xüsusi əhəmiyyət kəsb edən, lakin müasir dövrdə riayət edilmədiyi üçün cəmiyyətləri uçuruma, xaosa sürükləyən məsələləri tənzimləməsi, dilindən, dinindən, irqindən, maddi vəziyyətindən asılı olmadan bütün insanlığı əhatə etməsi baxımından Muhəmməd peyğəmbərin Vida Xütbəsi insan hüquq və azadlıqları sahəsində ilk universal xarakterli bəyannamə hesab edilməlidir.

Dissertasiya işində islam hüququnun mənbələri ilə yanaşı qərb dünyasında insan hüquqlarını ehtiva etməsi baxımından xüsusi əhəmiyyət kəsb edən və bu gün də insan hüquqlarının mənbəyi olaraq dünya dövlətləri tərəfindən istinad edilən müqavilələr tədqiq edilir.

Birinci fəslin **"İslamın əsas mənbələrində (Qurani-Kərim və Sünnədə) insan hüquq və azadlıqları"** adlanan üçüncü yarımfəslində islamın əsas mənbələrində (Qurani-Kərim və Sünnədə) təsbit edilmiş insan hüquq və azadlıqları Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan hüquq və azadlıqları ilə müqayisəli təhlil edilir. Təbii hüquq kimi, yaşamaq hüququna bütün müqəddəs kitablar, müasir konstitusiya və

bəyannamələr vasitəsilə verilən dəyər və təminata əsasən müəllif, qəsdən adam öldürməyə görə, yaxınlarını təskin etmək məqsədilə AR CM-in 120-ci maddəsində nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzası ilə yanaşı, islam hüququnda mövcud olan diyəyə uyğun olaraq təzminatın müəyyən edilməsini və 120.1. və 120.2.12.-ci maddələrin dəyişdirilərək müəyyən redaksiyada verilməsini məqsədəuyğun hesab edir.

İddiaçı qeyd edir ki, bütün dinlər, o cümlədən islam dini vasitəsilə qadağan edilmiş əməllərdən biri də homoseksualizmdir. Homoseksualizm Qurani-Kərimdə də ifadə olunduğu kimi, Lut peyğəmbərin qövmünün iyrənc və ən ağır şəkildə cəzalandırılmış əməli olmaqla, tarixin demək olar ki, bütün dövrlərində tətbiqi müşahidə edilmiş, müasir dövrdə isə daha geniş vüsət tapmışdır. Belə ki, bir sıra dövlətlərdə eynicinsli münasibətlər artıq qanunvericilik səviyyəsində nizama salınır, yəni bu cür münasibətlər nikah vasitəsilə qanuniləşdirilir. Respublikamızda bu əməl 2001-ci ilədək cinayət hesab olunmaqla, AR-in keçmiş CM-in 113-cü maddəsi ilə (Uşaqbazlıq) bu əmələ görə məsuliyyət nəzərdə tutulurdu. 2001-ci ildə bu maddə Avropa Şurasına üzv qəbul edilmək məqsədilə CM-dən çıxarıldı. Daha dəqiq desək, bu əməl respublikamızda icazə verilən olmaqla, onun tətbiqinə görə cinayət məsuliyyəti nəzərdə tutulmur.

Müəllif tərəfindən uşaqbazlığın ailə institutunu, həmçinin cəmiyyəti sarsıdan, mənəviyyata sığmayan, əxlaq normalarına uyğun gəlməyən əməl olduğu nəzərə alınaraq, bu əməlin AR CM-in 20-ci fəslində müəyyən edilmiş şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlərdən biri qismində nəzərdə tutulması məqsədəmüvafiq hesab edilir, AR CM-in 150-ci maddəsinin adının və dispozisiyasının uygun olaraq dəyişdirilməsi təklif edilir.

Dissertasiya işinin ikinci fəsli **"İslamda ayrı-ayrı insan və vətəndaş kateqoriyalarının hüquq və azadlıqları"** adlanır və üç yarımfəsildən ibarətdir.

Bu fəslin **"İslamda qadınların hüquq və azadlıqları"** adlanan birinci yarımfəslində qadınların hüquq və azadlıqları həm islama qədərki mədəniyyətlərdə, həm də islam dini nöqteyi-nəzərindən tədqiq edilmiş, bu dinin qadına verdiyi dəyər Qurani-Kərimin müxtəlif ayələri və Muhəmməd peyğəmbərin Sünnəsi əsasında təhlil edilmiş, müasir dövrdə aktual olaraq qalmaqda davam edən qadın-kişi bərabərliyi mövzusu fitri fərqlər nəzərə alınmaqla izah edilmiş, islam dininin qadına tanıdığı bütün hüquq və azadlıqlar öz əksini tapmışdır.

Bu yarımfəsildə iddiaçı qeyd edir ki, islama görə Allahın yaratdığı məxluq olmaq baxımından qadınla kişi bərabərdir. Qurani-Kərimdə insanlığın tək bir nəfsdən yaradıldığı bildirilməklə, bütün insanların Allaha qulluq üçün yaradıldığı hökmü ilə hər mövzuda qadınla kişi eyni əmr və qadağalarla mükəlləf tutulmaqla, eyni günah və savabı qazanacaqları elan edilməklə qadınla kişi arasındakı bərabərlik göstərilmişdir. Quranın hökmləri qadın-kişi bütün insanlara aiddir. Quran qadın və kişi cinsi üçün insanlar (ən-nas) kəliməsini, qadın-kişi möminlər üçün iman edənlər (əlləzinə amənu) ifadəsini işlədir. Muhəmməd peyğəmbər qadın-kişi bütün insanlığın peyğəmbəridir. Qurani-Kərimdə yaradılışla bağlı ayələr qadının və ya kişinin yaradılışına deyil, insanın yaradılışına aydınlıq gətirən ayələrdir. Yaradılışdakı (insanlar arasındakı) cinsi fərqlər isə birinə digərinə nisbətən üstünlük qazandırmır. Qurani-Kərimin bir çox ayələrində insanların bir-birindən üstünlüyünün insanların cinsi ilə deyil, iman, gözəl əxlaq və Allahın əmrlərinə riayət etməklə bağlı olduğu qeyd olunur. Qurani-Kərimin "Nisa" adlı (qadınlar) surəsi qadınlarla bağlı bir çox hökmü ehtiva edir, həmçinin Quranın 19-cu surəsi Hz. Məryəmin adı ilə "Məryəm" surəsi adlanır. Qadın və kişi sözlərinin Quranda eyni sayda - 23 dəfə zikr edilməsi də islamın qadın-kişi bərabərliyi ilə bağlı ən gözəl əyani sübutudur.

Müəllif bu yarımfəsildə AR AM-in 12-ci maddəsində təsbit edilmiş nikaha mane olan hallarla islam dininin müəyyən etdiyi nikaha mane olan halları təsbit edən Nisa surəsinin 23-cü ayəsini müqayisə edərək, milli qanunvericiliyimizin dayılar-əmilər və bacı-qardaş qızları, bibilər-xalalar və bacı-qardaş oğulları hallarının nikaha mane olan hallar qismində nəzərdə tutmadığını müəyyən etmiş, AR AM-in 12-ci maddəsinin 1-ci hissəsinə müvafiq dəyişikliyin edilməsini təklif etmişdir.

İkinci fəslin **"İslamda uşaqların hüquq və azadlıqları"** adlanan ikinci yarımfəslində uşaqların hüquq və azadlıqları, həmçinin vəzifələri onların mülki hüquq və mülki fəaliyyət qabiliyyəti nəzərə alınmaqla islam hüququnun və milli qanunvericiliyimizin normaları əsasında tədqiq edilmişdir. Qeyd edilir ki, uşaq ana bətnində olduğu vaxtdan yetkinlik yaşına qədər bütün inkişaf mərhələlərində uşaq olaraq qalır. Bu mərhələlərin hər birində onun şəriət və qanunla müəyyən edilmiş hüquqları vardır. Lakin uşaq bu hüquqları dərk və realizə etmək hüququndan məhrum olduğu üçün bu vəzifə ailənin, cəmiyyətin və dövlətin üzərinə düşür. Qanuni nikahdan doğulmuş və ya tapılma, əsil-nəsəbi məlum olan və ya olmayan, azad insan və ya kölə, müsəlman və ya qeyri-müsəlman

olmasından asılı olmayaraq bütün uşaqlar islam hüququnda və milli qanunvericilikdə qayğı və himayə ilə əhatə edilmiş və onlara normal inkişaf etmək üçün şərait yaradılmışdır.

Bu yarımfəsildə iddiaçı göstərir ki, Muhəmməd peyğəmbər varisə vəsiyyət edilməsini qadağan edir, çünki o qanun üzrə artıq vərəsədir. Yəni Nisa surəsinin 11, 12 və 176-cı ayələrində qanun üzrə vərəsələrin miras paylarının miqdarı müəyyən edilmişdir. İslam hüququnda vərəsəlikdən məhrum etmə halları kimi vərəsəsi olacağı şəxsi öldürmə, din fərqi, dindən dönmə və köləlik müəyyən edilmişdir. AR MM vərəsəlikdən məhrum etmə halları kimi ləyaqətsiz vərəsə (maddə 1137) və vərəsə ola bilməyən valideynlər (maddə 1138) hallarını nəzərdə tutur. Bu qadağaya və MM-nin təsbit etdiyi vərəsəlikdən məhrum etmə hallarına əsasən, iddiaçı, AR MM-nin 1166-cı maddəsindən vəsiyyət üzrə vərəsələr qismində qanun üzrə vərəsələrin çıxarılmasını, maddənin müvafiq redaksiyada verilməsini təklif edir.

Göstərilir ki, AR MM-in 1166-cı maddəsi vəsiyyət azadlığı prinsipi əsasında miras qoyan şəxsə əmlakını istədiyi şəxsə vəsiyyət etməyə imkan verir. Belə ki, vəsiyyət edən qanun üzrə vərəsələrdən birini, bir neçəsini və ya hamısını vəsiyyətnamə ilə mirasdan məhrum edə bilər və bunu əsaslandırmağa borclu deyildir. Düzdür, AR MM-in 1193-cü maddəsi vəsiyyətnamənin məzmunundan asılı olmayaraq qanun üzrə vərəsələrin mirasda məcburi pay hüququnu təsbit edir. Lakin qanuna əsasən bu pay, qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir. Miras qoyan şəxsin bu prinsipdən sui-istifadəsinin, həqiqi vərəsələrin vərəsəlik hüquqlarının pozulmasının qarşısını almaq məqsədilə iddiaçı, vəsiyyət ediləcək əmlakın Bəqərə surəsinin 180-ci ayəsində göstərilmiş miqdarda (mirasın 1/3-i) müəyyən edilməsini və AR MM-in 1166-cı maddəsinin müvafiq redaksiyada verilməsini təklif edir.

Qeyd edilir ki, cəmiyyətimizin qloballaşma, avropaya inteqrasiya proseslərindən mənimsədiyi mənfi cəhətlərdən biri də süni yolla övlad sahibi olmaqla bağlıdır. Yəni, normal yolla övlad sahibi ola bilməyən ailələrin və insanların donor vasitəsilə uşaq sahibi olmasıdır. Qərb ölkələrində geniş yayılmış bu üsul respublikamızda da böyük "rəğbət" qazanmışdır. Və bu rəğbətin nəticəsi "Əhalinin saglamlığının qorunması" haqqında 1997-ci il tarixli AR Qanununun 29-cu maddəsində (Süni mayalanma və embrionun implantasiyası) öz əksini tapmışdır. İddiaçı belə qənaətə gəlir ki, "Əhalinin saglamlığının qorunması" haqqında AR Qanununun 29-cu maddəsinin müddəalarının (Süni mayalanma və

embrionun implantasiyası) islam hüququna uyğun dəyişdirilərək, tətbiqinin yalnız evli cütllər arasında nəzərdə tutulması məqsədəmüvafiqdir.

Göstərilir ki, həmin qanunun qeyd edilmiş vəziyyətlə bağlı müddəaları müasir dövrün tələblərini tam olaraq əhatə etmədiyi üçün qanunverici orqanımız yeni qanunun qəbulu ərəfəsindədir. Həmin layihə “Reproduktiv sağlamlığın qorunması haqqında” Qanun adlanmaqla hal-hazırda ictimaiyyətin müzakirəsinə təqdim edilmişdir. IV fəsil, 23 maddədən ibarət olan bu qanun, süni yolla uşaq sahibi olmanın əsaslarını müəyyən edir. Qanunun 12-ci maddəsinə əsasən, somatik və psixi cəhətdən sağlam yaşı 18-dən 35-dək olan kişilər və qadınlar müvafiq tibbi-genetik müayinədən keçdikdən sonra mayalanma xüsusiyyətinə malik cinsi toxumaların donoru ola bilərlər. Bir şəxs beş!!! ailə üçün donor ola bilər. Donor köməkçi reproduktiv texnologiyaların tətbiqi nəticəsində onun toxumasından doğulan uşağa görə öhdəlik daşımır və bu uşağa heç bir hüququ yoxdur. Tədqiqatçı “Reproduktiv sağlamlığın qorunması haqqında” Qanun layihəsinin donor xidmətləri ilə bağlı müddəalarının islam hüququna uyğun dəyişdirilərək, tətbiqinin yalnız evli cütlər arasında nəzərdə tutulması təklif edir.

İkinci fəslin **“İslamda qeyri-müsəlmanların (zimmilərin) və kölələrin hüquq və azadlıqları”** adlanan üçüncü yarımfəslində islam hüququnda qeyri-müsəlmanların hüquq, azadlıq və vəzifələri, eləcə də kölələrin hüquqi statusu, köləlik institutunun islamaqədərki vəziyyəti islam dini nöqteyi-nəzərindən tədqiq edilir. İddiaçı qeyd edir ki, praktikada fərqli din və mədəniyyətlər üzərində hakimiyyəti həyata keçirən dövlətlərin digər millətləri bu sahədə özlərinə tabe etdikləri, dinlərini zorla dəyişdirməyə çalışdıqları tarixdə tez-tez rastlanan vəziyyətdir. İslam dini tarixdə müşahidə edilən belə vəziyyətləri aradan qaldırmaq üçün din və mədəniyyətlərin hakimiyyət altına alınacağı təqdirdə müsəlmanlara yol göstərəcək qaydaları ehtiva edir. Belə ki, Qurani-Kərim tərəfindən müəyyən edilmiş əsaslarla qeyri-müsəlmanların zimmi statusu altında islam hakimiyyətini qəbul etmələri və ödəyəcəkləri cizyə qarşılığında hüquq və azadlıqlarına təminat verilmişdir. 14 əsrlik tarixində islam dünyası Quranın müəyyən etdiyi prinsiplər və Muhəmməd peyğəmbərin nümayiş etdirdiyi davranışlar əsasında müsəlman olmayanlara son dərəcə anlayışlı davranmışdır. Hər üç dinin - islamın, yəhudiliyin, xristianlığın əsaslarına nəzər saldıqda qarşılıqlı anlaşmanın, dialoqun və birgə yaşamanın hər üç dinin əsas prinsipləri olduğunu görürük. Hər üç dini kitabda insanlara sevgi, barış, sülh içində yaşamağı, bir-birinə anlayışlı davranmağı təlqin

edən kifayət qədər ayə vardır. Lakin tarixə nəzər saldıqda nəzəriyyədən fərqli olaraq, praktikada dinlərin eyni şəkildə anlayış nümayiş etdirmədiyini müşahidə edirik. İslam dinindən fərqli olaraq, digər iki dinin nümayəndələri bu gün də islam dininə və onun mənsublarına qarşı olan kin və nifrətlərini nümayiş etdirməkdə, müxtəlif çirkin üsullardan istifadə etməklə bu dinin təbliğ və təşviq etdiyi qaydaları aradan qaldırmağa çalışmaqda, ictimai həyatın bütün sahələrində islam dünyasına açdıqları savaşı nümayiş etdirməkdədirlər.

Qeyd edilir ki, illər öncə müxtəlif səbəblərdən mövcud olmuş köləlik institutu hal-hazırda dünyanın müxtəlif yerlərində gedən müharibələr, aclıq, kasıblıq və s. səbəblərdən yenidən aktuallıq qazanmaqdadır. Kölələrlə münasibət, bu vəziyyətin aradan qaldırılması yolları və bu sahədə Muhəmməd peyğəmbərin praktikası tədqiq edilir.

Dissertasiyanın **nəticə** hissəsində tədqiqat yekunlaşdırılır, ümumiləşdirmə aparılır, onun nəzəri və praktiki əhəmiyyəti qeyd olunur, eləcə də müəllifin tövsiyələri verilir.

**Dissertasiya mövzusu ilə əlaqədar müəllifin aşağıdakı elmi əsərləri dərc olunmuşdur:**

1. Vicdan, fikir və söz azadlıqlarının islam hüququnda təmin olunması formaları //Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Bakı, 2009, səh. 8-11.
2. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş bəzi azadlıq hüquqlarının islam hüququnda təmin olunması formaları// İnsan və vətəndaşın azadlıq hüququnun müdafiəsi problemləri. Elmi-praktiki konfransın materialları. Azərbaycan Respublikası DİN Polis Akademiyası, Bakı 2009, səh. 39-41.
3. İslamda yaşamaq hüququ// Bakı islam mədəniyyətinin paytaxtıdır. Beynəlxalq konfransın tezisləri. Bakı 9-10 noyabr 2009, səh. 145-147.
4. İslamda yaşamaq hüququ// Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi, Bakı 2009, BDU-nun nəşriyyatı, səh.279-285.
5. İslamda insan haqları// Hüquqi dövlət və qanun, Elmi-nəzəri, təcrübi aylıq jurnal. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2010, № 6 (144), səh.20-24.
6. Şəxsi toxunulmazlıq hüququnun islamda və milli qanunvericilikdə müdafiəsi formaları// Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri (51). Bakı, 2010, səh.197-201.

7. Şəxsi toxunulmazlıq hüququnun islamda və milli qanunvericilikdə müdafiəsi formaları// Heydər Əliyevin anadan olmasının 87-ci və Böyük Vətən müharivəsində Qələbənin 65-ci ildönümlərinə həsr olunmuş "Cinayət və cinayət prosessual hüquqda problemlər" mövzusunda Respublika elmi-praktiki konfransının materialları. Bakı, Milli Aviasiya Akademiyası, 7 may 2010, səh. 114-122. Heydər Əliyev Beynəlxalq Aeroportunun Poliqrafiya Mərkəzi.

8. İslamda və milli qanunvericilikdə bərabərlik hüququ// Nəqliyyat hüququ. Elmi-nəzəri, təcrübi jurnal. Bakı 2011, №1, səh. 67-79.

9. İslamda qadın haqları// Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi. Bakı 2011, BDU-nun nəşriyyatı, səh. 7-21.

10. Tolerantnost v İslame// Право і суспілство. Науковий журнал. Kiev 2012, №1, səh. 26-29.

11. İslam hüququnda və milli qanunvericilikdə uşaq haqları// Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi. Bakı 2012, BDU-nun nəşriyyatı, səh. 7-27.

12. İslamda insan haqlarını təsbit edən normativ aktlar (Mədinə Müqaviləsi və Vida Xütbəsi)// Din və ictimai təhlükəsizliyin aktual problemləri. AMEA-nın İnsan Hüquqları İnstitutu. Bakı 2013, səh. 218-233.

13. İslam hüququnda silahlı münaqişələr zamanı insan hüquqlarının qorunması məsələləri. (İslam tarixindən və Azərbaycanın XIII-XV əsrlər tarixinə aid misallar əsasında)// Milli Aviasiya Akademiyasının Elmi məcmuələri. Bakı 2014, Cild 16, №1, səh. 84-92.

14. İslam hüququnda və milli qanunvericilikdə övladlığa götürmə və vərəsəlik məsələləri// Milli Aviasiya Akademiyasının Elmi məcmuələri. Bakı 2014, cild 17, № 2, səh. 87-93.

## РЕЗЮМЕ

Диссертационная работа Алиевой Мушарраф Гусейнага кызы на тему «Права человека в исламском праве», представленная на получение ученой степени доктора философии по праву по специальности 5607.01- «Конституционное право; муниципальное право», является самостоятельной, творческой и завершенной исследовательской работой, отражающей совершенно новые научные положения, в настоящем демократическом периоде имеет важное значение для осуществления на сфере человеческие права.

Диссертационная работа состоит из введения, двух глав, заключения, списка использованной литературы и приложений.

Во Введении диссертационной работы обосновывается актуальность темы исследования, научная новизна, определены цели и задачи, новые научные положения, выносимые на защиту, была указана теоретическая и практическая значимость исследования.

Первая глава диссертации, состоящая из трех параграфов и озаглавленная “Общий характер прав и свобод человека в Исламе”, раскрывает содержание понятий прав и свобод человека согласно исламской религии, анализирует этапы возникновения и развития этих понятий; проводит сравнительный анализ прав и свобод человека, закрепленных в основных исламских источниках (Коран и Сунна), с одной стороны, и национальном законодательстве, с другой.

Состоящая из трех параграфов, вторая глава диссертации “Права и свободы отдельных категорий людей и граждан в Исламе” анализирует права и свободы женщин на основе различных коранических аятов и сунн Пророка (s.a.v.), а также влияния культуры доисламского и исламского периодов; интерпретирует актуальную на современном этапе тему равноправия женщин и мужчин с учетом естественных различий между ними. В указанной главе на основе исламского права и национального законодательства нашли отражение все права и свободы женщин, предусмотренные исламской религией; рассмотрены права и обязанности детей, их гражданские права и правоспособность; проанализированы права, свободы и обязанности немусульман, а также правовой статус рабов и положение института рабства в доисламский период.

В Заключении диссертации подводятся итоги проделанной работы; находят свое отражение выводы и умозаключения автора, связанные с совершенствованием законодательства по правам и свободам человека.

## SUMMARY

Dissertational work by Aliyeva Musharraf Huseynaga gizi on the topic "Human rights in Islamic law", presented for the degree of Doctor of Philosophy in law on specialty 5607.01- "Constitutional law; Municipal law ", is an independent, creative and completed research work reflecting entirely new scientific provisions, in the present democratic period is of great importance for the implementation of human rights on the sphere.

The thesis consists of an introduction, two chapters, a conclusion, a list of used literature and appendices.

In the Introduction of the dissertation work, the relevance of the research topic is substantiated, the scientific novelty, the goals and tasks, the new scientific provisions to be defended, the theoretical and practical significance of the research were indicated.

The first chapter of the dissertation, consisting of three paragraphs and entitled "The general character of human rights and freedoms in Islam," reveals the content of the concepts of human rights and freedoms in accordance with the Islamic religion, analyzes the stages of the emergence and development of these concepts; Conducts a comparative analysis of human rights and freedoms enshrined in the main Islamic sources (Koran and Sunnah), on the one hand, and national legislation, on the other.

Consisting of three paragraphs, the second chapter of the thesis "Rights and freedoms of certain categories of people and citizens in Islam" analyzes the rights and freedoms of women on the basis of various Quranic verses and Sunnahs of the Prophet, as well as the influence of the culture of pre-Islamic and Islamic periods; interprets the actual topic of equality of women and men at the present stage, taking into account the natural differences between them. In this chapter, on the basis of Islamic law and national legislation, all the rights and freedoms of women provided for by the Islamic religion are reflected; the rights and duties of children, their civil rights and legal capacity; analyzed the rights, freedoms and duties of non-muslims, as well as the legal status of slaves and the position of the institution of slavery in the pre-Islamic period.

The dissertation concludes the results of the work done; Are reflected the conclusions and conclusions of the author, related to the improvement of legislation on human rights and freedoms.

Çapa imzalanıb:28.03.2017
Format: 60x84 16/[1]
1,5 ş.ç.v
Tiraj:100
AMEA-nın mətbəəsində çap olunub

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙ[illegible] РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУ[illegible]ЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**МУШАРРАФ ГУСЕЙНАГА кызы АЛИЕВА**

# ПРАВА ЧЕЛОВЕКА В ИСЛАМСКОМ ПРАВЕ

Специальность: 5607.01- «Конституционное право; муниципальное право»

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по праву

**Б А К У - 2017**